

Din və dünya üçün tənbəllik və səhlənkarlıqdan böyük bədbəxtlik yoxdur. Bu bədbəxtlik insanlar arasına yayılsa, bütün fəzilət və xeyirxahlıq aradan qalxar, bəlkə insanlığın özü məhv olar.

İnsan gərək öz vəziyyətinə baxıb xalqın bütün təbəqələri ilə müvafiq münasibətdə olsun və müxtəlif şəkildə rəftar etsin. Onun bütün təbəqələrə münasibəti üçdən artıq ola bilməz: ya o təbəqədən yuxarı olar, ya bərabər, ya da aşağı. Təbəqədən yuxarı olarsa, öz mövqeyini mühafizə etməyə çalışmalı, aşağı enməyə meyl etməməlidir. Bərabərdirsə, o mərtəbədən yüksəyə qalxmağa səy göstərməli; aşağıdırsa, həmin təbəqədən çıxmağa çalışmalıdır. Allah özü bilən yaxşıdır...

N.Tusi

## Tanışlığın davamı

**Ötən saylarımızın birində Elvira xanım Araslının Yaxın Şərqə həsr olunmuş kitablarından biriylə sizi tanış etmişdik. Bu gün həmin tanışlığı davam etdiririk. Elvira xanımın öz atası, həyat yoldaşı, ədəbiyyata, sənətə dair fikirləri də yəqin ki, oxucularımız üçün böyük maraq doğuracaq.**

*- Elvira xanım, atanız Əli Əmiraslanovun ömür yolu çox maraqlıdır – insan iradəsinin, səy və bacarağının nəyə qadir olduğunu bir daha sübuta yetirir.*

- Bəli, sözünüzdə haqq var. Atam Əli Ağamalı oğlu Əmiraslanov Zəngəzur qəzasının Balahəsənli kəndində anadan olub. Erkən yaşlarında valideynlərini itirib. Deyilənə görə, çox müdrik bir qadın olan nənəsinin himayəsində böyüyüb. Elə öz kəndində ikillik məktəb bitirib, sonra da təhsilini realnı məktəbdə davam etdirmək üçün Şamaxıya – əmisinin yanına gəlib. Birinci dünya müharibəsi ərəfəsində Şamaxıya çoxlu ermənilər də köçürülmüşdü. Qaçqın olmaqlarına baxmayaraq, onlar özlərini son dərəcə həyasız və səllimi aparırdılar. Bir tərəfdən də daşnakların quldur dəstələri onlara himayə göstərib, qırğınlar törədiblər – müsəlman əhlinin ev-eşiyini yaxıblar-yağmalayıblar, qadınların başına min oyun gətiriblər, qocaları, uşaqları təndirə basıb yandırıblar. Və atamın nənəsi də həmin qırğından sağ çıxmayıb. 16 yaşlı atam öz əmisi oğlu Mehbalı ilə özünümüdafiə dəstələrinə qoşulub, ermənilərdən qisas almağa gedib. Sonra onlar Bakıya gəliblər. Zavodda işə düzəliblər, bir müddət neft mədənlərində qara fəhlə kimi işləyiblər. Eşidəndə ki, Qızıl Ordu cərgəsinə qoşulanlara



yurd-yuva, yemək-paltar verilir, atam da həmin siyahıya yazılıb, Mehbalını isə azyaşlı olduğuna görə götürməyiblər...

O vaxt savadlı adamları barmaqla sayardın, oxumuşlar azıydı. Atamın arzusu dağda-daşda dolaşmaq, başqa sözlə desək, geoloq olmaq idi. İşləməklə bərabər o Politexnik institutda təhsil alır. Sonra atam Əli nümunəvi bir işçi kimi Şərq xalqlarının qurultayına nümayəndə seçilir, Moskvaya gedir. Heç ağlına gəlməzdi ki, çox yox, iyirmicə ildən sonra o da həmin Kreml kabinetlərinə ayaq açan adamlardan biri

olacaq, hətta «millətlər atası» Stalinlə neçə dəfə üzbəüz görüşəcəkdi...

1926-cı ildə atam Bakıdan Moskvaya – Dağ Sənayesi Akademiyasına, geoloji-kəşfiyyat fakültəsinə dəyişilir. Burda ona çox parlaq zəkalı müəllimlər, alimlər dərs deyir. Akademiyanı bitirəndən sonra atam bir neçə il geoloji-kəşfiyyat institutunda işləyir. Qafqazın, Qazaxıstanın, Uralın, Orta Asiyanın, Baykalın bir sıra faydalı qazıntı yataqlarını qarış-qarış gəzir, öyrənir. Çox çəkmir ki, o, bu sahədə artıq ən seçilib-sayılan mütəxəssislərdən hesab olunur. 1937-ci ildə bir sıra dəyərli çalışmalarına görə, Əli Əmiraslanova elmlər namizədi alimlik dərəcəsi verilir. Bundan sonra atam geoloji-kəşfiyyat sahəsində ən yüksək vəzifələrdə işləyir. Baş geoloq, hətta SSRİ Əlvan Metallurgiya kəşfiyyat xidmətinin rəisi kimi məsul vəzifəyə irəli çəkilir. Siz adicə bir kənd uşağının 9 il ərzində SSRİ miqyasında belə tanınmasına, ad-san qazanmasına fikir verin! Hər oğulun hünəri deyil... Atamın əsas vaxtı ekspedisiyalarda keçirdi.

***- Yaxşı deyiblər ki, geoloq necə deyərlər, «ayağı altına gəlməyən» peşədi. Və gələndə də...***

- Bacımla mən onu həmişə yazı masasının arxasında görərdük. Gecə yarıdan keçənə qədər işləyirdi. 1941-ci ildə müharibə başladı. SSRİ Əlvan metallurgiya kəşfiyyatının bütün ağırlığı atamın çiyinlərindəydi. Hətta Qazaxıstanda, eləcə başqa yerlərdə cəbhə üçün son dərəcə gərəkli olan mis, molibden yataqlarını atam sözün əsl mənasında, gözəyarı tapmışdı. Ölkədə bir çox geoloji kəşfiyyat idarələri və onların fəaliyyəti atamın ixtiyarında idi. Yadımdadı ki, müharibədən əvvəl də, sonra da adamlar bir-birinin ardınca yoxa çıxırdı. Atamın da çarpayısının altında ən lazımlı şeylər qoyulmuş bir balaca çamadanı vardı. Bir gecə bizim də qapımız döyüldü. Anam ağladı. Atam çarpayının altındakı çamadanı götürdü, şinelini çiyninə atıb iki nəfərin müşayiəti ilə qapıdan çıxdı və getdi. Birbaşa Beriyanın kabinetinə aparıblarmış. Bunacan atam Beriya ilə dəfələrlə görüşmüşdü. Söhbət uzun çəkmir. Görünür, atamı gedər-gəlməzə yollayacaqmışlar. Nə yaxşı ki, atamın dostları bundan xəbər tutdu və onu ölümün pəncəsindən qurtara bildilər.

***- Sonra yenə əvvəlki işinə qayıtdı?***

- Əlbəttə, çünki atam güclü, son dərəcə lazımlı kadr idi. 1946-cı ildə Əli Əmiraslanov geoloji yoxlamalar üçün İrana yollandı. İrandan qayıdanda Azərbaycanın o vaxtkı rəhbəri Mircəfər Bağırov onunla görüşür və ona təklif eləyir ki, Moskvadan gəlib Azərbaycan Nazirlər Sovetinin sədri olsun. Atam çox nəzakətlə bu təklifin altından qaçır, deyir ki, elmlə məşğul olmaq fikrindədi. Onda Mircəfər Bağırov atama Elmlər Akademiyası prezidentliyini təklif edir. Atam fikirləşəcəyinə söz verib, Moskvaya uçur. Sonra Moskvadan Mircəfərə zəng eləyib, yenə də çox nəzakətlə təklifə görə minnətdarlıq eləyir və ərz eləyir ki, Moskvada qalıb Azərbaycan elmini təmsil etsə, ölkəyə daha böyük xeyir verə bilər. Çox çəkmir ki, yəni 1947-ci ildə Əli Əmiraslanov geologiya-mineralogiya elmləri doktoru dərəcəsinə layiq görülür.



***- Sonra... Ölkənin həyatında tamam yeni dövr başlayır...***

- Bəli, yəqin Stalinin ölümünü nəzərdə tutursuz... Hər sahədə dəyişmələr başladı. O ərəfədə Elmlər Akademiyasının filialı Kola yarımadasında konfrans keçirəcəkdi. Artıq bir çox vəzifədən çıxarılmış adlı-sanlı alimlər həmin tədbirə qatılacaqmış. Əli Əmiraslanov da həmçinin. Tədbirə bir neçə gün qalmış atamı infarkt vurdu. Və həkimlər ona uçmağı qəti qadağan etdilər. Demə, atamın bəxti gətiribmiş. Alimləri Moskvadan aparan təyyarə yarımadaya az qalmış göydə partlayır və təyyarədəkilərin hamısı həlak olur. Sonradan deyilənə görə, bu təşkil olunubmuş. Atam bir neçə müddət özünə gəlmədi, çünki həlak olanların çoxusu onun yaxın dostlarıydı. 1953-cü ildə xoş müjdələr də aldıq. Əli Əmiraslanov SSRİ Elmlər Akademiyasının həqiqi müxbir üzvü seçildi və əslində atam ilk azərbaycanlı idi ki, SSRİ Elmlər Akademiyasının akademiki sayılırdı.

O da yadımdadı ki, növbəti bazar günü "Praqa" restoranının güzgülü zalında böyük banket quruldu. Ölkənin hər yerindən, o cümlədən Bakıdan da atamın sevimli qardaşı Mehbalı Əmiraslanov gəlmişdi. Atam ondan sonra da yorulmadan bu sahədə çalışdı. Cəsarətlə deyə bilərəm ki, SSRİ-nin əlvan metallurgiyası atamın rəhbərliyi altında öz yönünü, görkəmini tamamilə dəyişdi və dünyada ön cərgəyə çıxdı. Ömrünün son illərində atam Çin, İsveç, Polşa, Macarıstan və başqa ölkələrin geoloji kəşfiyyat xidmətinə yaxından köməklik göstərirdi. Xüsusilə onun 1960-cı ildə Kopenhagendəki geoloji konqresdə məruzəsi sonradan kitab halında işıq üzü gördü. Mənə elə gəlir ki, atam hardasa hiss etmişdi ki, Allah-təala və tale ona o qədər də uzun ömür qismətinə çıxarmayıb. Odu ki, əvvəlkindən daha artıq həvəslə, hətta mən deyərdim ki, acgözlüklə işləməkdə idi.

***- Atanız Əli Əmiraslanovun bu illər ərzində Vətənə – Zəngəzura heç yolu düşmədi?***

- Hər bir insan üçün öz doğulduğu, ilk qədəm qoyduğu torpaq həddən artıq əzizdir. Atam da bütün ömrü boyu öz doğma eli-obası üçün darıxırdı. Neynəməli, qisməti beləymiş. Allaha şükür ki, onun övladları, nəvələri, nəticələri salamatdı, yer üzünü gəzib dolaşır... Əminəm ki, onun həmişə qəribsədiyi doğma torpaq bir gün işğalçılardan təmizlənəcək və Əli Əmiraslanovun nəsilndən olan kəslər öz ayaqları ilə babalarının torpağına yollanacaq, öz dədə-baba köklərinə əlləri ilə toxunacaqlar...

***- Səhv etmiriksə, siz də əvvəlcə atanızın yolunu tutub getdiniz...***

- Bəli. Orta məktəbi bitirəndə məhz atamın məsləhəti oldu ki, onun yoluynan gedim. Moskva geoloji institutuna qəbul olundum. Elə o vaxt ərə getdim, oğlum oldu. Aspiranturaya girdim. Sonra Naxçıvana – Ağdərə yatağına işləməyə yollandım. Ordan xeyli material topladım. Moskvaya qayıtdım, dissertasiya yazmaqla bərabər, Ümumittifaq mineral ehtiyatlar institutunda işləməyə başladım... Onu da deyim ki, elə bayaq da bu barədə danışdıq, geoloji xidmət özlüyündə qəribə bir həyatdı. Geoloq oldunmu, gərək özünü bütövlüklə bu peşəyə həsr edəsən. Bu ixtisas çətin olduğundan, bu sahədə qadınların sayı da azdır. Ərə gedəndən sonra başa düşdüm ki, bundan beləsinə mənə geoloqluq yaraşmaz. Ailə ilə bu sənət tutmur. Həm də ərim xaricdə işləyəndə, İraqın qızmar iqlimində uşaqlara qayğım gecə-gündüz olmalıydı. Elə özümü də buna həsr elədim. İş orasındadı ki, boş vaxtım da çox qalırdı. Moskvada yaşayanda başımı qaşımağa vaxtım olmazdı. Gah dükanlarda yemək-içmək axtarırdım, gah evi sahmana salırdım, paltar yuyurdum və s. Xaricdə işləyəndə isə bu işləri xadimə görürdü. Onda bəs yerdə qalan vaxtımı neynəməliydim? Bekarçılıqdan ailə üzvləri üçün şarf, yun köynək toxumağa başladım. O ola ki, o vaxtkı İraqın dükanlarında rəngli ip-sap bol idi.

***- Rənglərə, rəssamlığa həvəsiniz də o vaxtdan başlayıb?***

- Haqlısız. Rəssamlığa həvəsim də o vaxtdandı. Yağlı boya ilə şəkillər çəkirdim. O vaxt səfir uşaqları üçün bir pyes də yazdım. Hamının xoşuna gəldi. Və elə bu dəmdə balacalar üçün nağıllar quraşdırmağa başladım. Orda rus dilində uşaq kitabları demək olar ki, yox idi. Bu dildə uşaqlar üçün nağıllar, xırda hekayələr yazırdım. Uşaqlar yatanda bizimkilər onlara mənim nağıllarımı oxuyurdular. İlk nağıllar kitabım 1978-ci ildə "Gənclik" nəşriyyatında buraxılıb. İkincisi 80-də, üçüncüsü ondan iki il sonra – yəni 1982-ci ildə. Həmin kitab Moskvada keçirilən kitab yarmarkasında çexlər tərəfindən alındı və 1990-cı ildə çex dilində nəşr olundu. 2006-cı ildə yenə də uşaqlar üçün «Əli-qocanın nağılları» adı ilə bir kitabım işıq üzü gördü. Onu da deyim ki, həmin kitaba rəssam İsmayıl Məmmədov çox gözəl illüstrasiyalar çəkib. Elə 2008-ci ildə nəşr olunan «Gümüş pişik balası» adında kitabımın tərtibatı da İsmayıl Məmmədovundu.

Vaxt keçirdi və o əsnada ağlıma gəldi ki, atama və atamın dövrünə həsr olunmuş adamlar barədə bir kitab yazım. Və beləliklə «İnsan və onun zəmanəsi» adında kitabım 2007-ci ildə çapdan çıxdı.

***- Sözümüzün bu yerində istərdik ömür-gün yoldaşınız, görkəmli diplomat və gözəl insan Elman Araslıdan bəhs edəsiniz. Elman Araslı ilə tanışlıq sonradan ömrünüzün bütün istiqamətini dəyişmiş oldu...***

- Mənim atam çox istəyirdi ki, elə bir oğlu dünyaya gəlsin ki, onun işini davam elətdirsin. Ancaq hərənin öz qisməti var. Deyim ki, atam heç vaxt nə biz qızları ilə, ümumiyyətlə ailədə kişi-qadın münasibətləri haqqında söz deyib-danışmazdı. Moskvada yaşasa da, işləsə də o elə doğulduğu torpağın, Şərq tərbiyəsinin övladı idi. Nəhayət günlərin bir günü biləndə ki, mən onun həmyerlisi, azərbaycanlı balası, məşhur akademik Həmid Araslının oğlu ilə tanış olmuşam, bu məsələyə mənbilən, çox sevindi. Dedi ki, qoy o oğlan bizə gəlsin, onunla tanış olmaq istəyirəm. Elman Araslı bizə ayaq basan saatdan onlar atamla hər cəhətdən çox tez dil tapa bildilər. Atam Moskvada Azərbaycan üçün,



Azərbaycan dili üçün çox darıxmışdı. Düz altı aydan sonra Moskvadakı məşhur «Praqa» restoranında toyumuz oldu. Hər iki tərəfdən çoxlu qonaqlar vardı. Bakıdan atamın dostları, qohum-qardaş gəlmişdi.

1962-ci ildə isə həyat yoldaşım Elman Araslı Qahirəyə SSRİ Ticarət nümayəndəliyinə tərcüməçi göndərildi.

***- Səhv etmiriksə, həyatınızda yeni bir mərhələ də o vaxtdan başlayır, eləmi?***

- Bəli. Elə o gündən də bizim 54 ildən artıq çəkən köçəri həyatımız başladı. Deyim ki, Elman özü Bakıda Universitetin filoloji fakültəsini bitirmiş, hətta bu sahədə dissertasiya da müdafiə eləmişdi. Moskvaya gələndə ərəbcə bilmirdi. Öz istedadı və inadkarlığı sayəsində SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun aspiranturasında çox qısa müddət ərzində ərəbcəni öyrəndi. Bu sahədə onun müəllimləri ərəb filologiyasının ən yaxşı biliciləri sayılan rus-ərəb lüğətinin tərtibçisi Q.Şərbətovun və poliqlot, hərtərəfli biliyə malik Ansın böyük xidməti olubdur. Qahirədən qayıdandan sonra Elman Şərqşünaslıq institutunun direktoru akademik B.Qafurovun məsləhəti ilə ərəb ölkələrinin iqtisadiyyatı ilə məşğul olmağa başladı... Nə isə... Mən bu barədə uzun-uzadı danışmaq istəmirəm. Ondan sonra biz Bağdadda, Cənubi Yəməndə, İordaniyada işlədik. İş elə gətirdi ki, bu arada SSRİ adlanan dövlət çökdü və biz artıq fərqli bir ölkəyə qayıtmış olduq...

Elman Araslı başa düşdü ki, milli azadlığına qovuşan Azərbaycanın diplomatiya sahəsində təcrübəli kadrlara ehtiyacı var. Biz Bakıya qayıtdıq.

***- Elman Araslı – müstəqil Azərbaycanın ilk səfirlərindən sayılır.***

- Bəli, 1994-cü ildə Elman Araslı Azərbaycan Respublikasının tarixdə ilk dəfə Səudiyyə Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin olundu, eləcə də Azərbaycanın İslam Konfransı Təşkilatında nümayəndəsi sayıldı. Bəhreyndə, Qatarda və Omanda da Azərbaycanın diplomatik işini Elman aparırdı. Onu deyim ki, ulu öndər Heydər Əliyevin göstərişi ilə Yaxın Şərq ölkələri ilə və ilk növbədə Səudiyyə Krallığı ilə yaranan diplomatik əlaqələrin təşəbbüskarı, məhz Elman Araslı olub. Səudiyyə Kralı Fəhd ben Əbdül Əziz şəxsi söhbət əsnasında demişdi ki, səfir – yəni Elman Araslı Azərbaycan hökumətinə çatdırsın ki, işğala uğrayan Azərbaycan torpaqları azad edilməyincə Ermənistanın Ər-Riyadda heç bir səfirliyi açıla bilməz.

2006-cı ildə biz İordaniya Haşimi Krallığına yerimizi dəyişdik. Çox qısa bir müəddət ərzində Elman Araslı Ammanda Azərbaycanın səfirliyini aça bildi. Üççə həftədən sonra İordaniya kralı 2-ci Abdulla Azərbaycana təşrif buyurdu və bizimlə əməkdaşlıq barədə hökumətlər arasında ilk razılıq imzalandı. Elman Araslının İordaniyada altı illik fəaliyyəti dövründə kral Abdulla ben Huseyn bizim ölkəyə üç dəfə gəlib-getdi və Azərbaycan prezidenti İlham Əliyev də iki dəfə İordaniyada səfərdə oldu.

***- E.Araslını tanıyanların hamısı deyir ki, o məşhur diplomat olmaqla yanaşı, çox savadlı, uşaq kimi məsum, vicdanı təmiz bir insandır.***

- Tamam düz deyirlər. Elman Araslı öz işində heç vaxt öz vicdanı ilə güzəştə getməyib. Əməkdaşları ilə ciddi, hətta sərt davransa da, həmişə ədaləti gözləyib. Diplomatların bütöv bir nəslini yetişdirib. Biz İordaniyadan qayıdandan sonra da Elmanla işləmiş əməkdaşlar tez-tez ona zəng vurur, ondan xəbər tutur və birgə çalışdıqları günləri xatırlayırdılar...

Onu da deyim ki, Elman Araslı Səudiyyə Krallığının ən yüksək ordeninə layiq görülüb. Bu böyük mükafatdır. İş belə gətirmişdi ki, Elman Araslı üç dövlətin diplomatı olub. 1991-ci ilə qədər SSRİ-nin, 91-92-ci illər Rusiya Federasiyasının və nəhayət, 1993-cü ildən üzü bəri doğma, müstəqil Azərbaycan Respublikasının. Ərəb İslam dünyası ilə əməkdaşlıq və dostluq tellərinin möhkəmlənməsində E.Araslının rolu əvəzsizdir. Və onun qələmə aldığı «Yarım əsr Yaxın Şərqdə» adlı çox gərəkli bir kitab həmin illərdən yadigar olmaqla, həm oxucular, həm də diplomatlar üçün dəyərli kitabdır..

***- Elvira xanım, yəqin ki, nə qələmi yerə qoymusuz, nə də fırçadan ayrılmısız...***

- Sözsüz. Bu günlərdə mən Nar haqqında öz kitabımı sona yetirmişəm. Mənbilən, Allahın yaratdığı sirli-sehrli nar meyvəsi buna layiqdi. Kitab belə də adlanır – «Nar – tacsız kral». Ümidvaram ki, bu kitabım da işıq üzü görəcək və öz oxucusunu da tapacaqdır.

***- Yəqin ki, lazım bilsəniz, həmin kitabdan bəzi səhifələrin bizim dərgimizdə çapına da razılıq verərsiz.***

- Böyük məmnuniyyətlə.

*- Elvira xanım, bəs kitablarınız azərbaycan dilinə niyə tərcümə olunmur?*

- Kitablarımın Azərbaycan dilinə tərcüməsinə gəldikdə, onu deyim ki, bu məsələ məndən asılı deyil. Bilirik ki, onsuz da uşaqlar üçün yazılan kitablar azlıq eləyir. O ola ki, nağıllar. İnternetdə bəzən uşaqlıqda mənim nağıllarımı oxuyan cavan anaların fikirlərinə rast gəlirəm. Onlar da mənim nağıllarımı doğma azərbaycan dilində görmək istəyirlər. Əlbəttə, belə bir ehtiyac yaransa, məmnuniyyətlə razılıq verərəm. Hələ ki, bu məsələ əvvəlki kimi qalır. Məndən asılı olan iş deyil.

***- Yəqin ki, incəsənət hazırkı məqamda sizinçün həm məşğuliyyət, həm də ciddi bir işdir?***

- İncəsənətdə deyərdim ki, mən bir az naşıyam. Düzdü, marağım uşaqlıqdan bəri mənimlədi. Çox şeydən yapışmışam – rəssamlıq, yapma, metal, tikmə, çini, xalçaçılıq və son illərdə qobelenlə... 1972-ci ildə Moskva uşaq dəbləri kolleksiyası mənim tikmələrimlə bərabər Paris sərgisində birinci yer tutdu. Əl işlərimi İraqda, Yəməndə, Səudiyyə Ərəbistanında, İordaniyada, o cümlədən bu ölkələrin televiziya ekranlarında tez-tez göstərmişəm. Moskva televiziyasında isə mənim əl işlərimə həsr olunmuş üç veriliş gedib. Azərbaycanda da mənimlə maraqlanıblar. Bir neçə müddət əvvəl Azərbaycan Aviasiya Akademiyasında mənim yelpiclərimin sərgisi keçirildi. Eyni zamanda bundan bəhs edən film də çəkildi.

***- Elvira xanım, Şərq üçün darıxan anlarınız olurmu?***

- Əlbəttə, bəzən Şərq üçün yaman darıxıram, xüsusilə İordaniya üçün. Necə darıxmayım axı? Həyatımın böyük bir qismini o yerlərdə yaşamışam...

***- Çox sağ olun ki, dərgimizə vaxt ayırdız, Sizi xeyli yorduq...***

- Xeyr, siz sağ olun ki, ikinci dəfədi «Qobustan» sənət jurnalında mənim özümə, yaradıcılığıma yer ayırırsız. Çox-çox təşəkkürlər...

***

Bu müsahibədən bir müddət keçəndən sonra Elvira xanım Araslıdan çox təəssüf ki... hüzn dolu bir «qara kağız» aldıq... Qoy özü dedi:

**«Qobustan» jurnalı, Vaqif Əlixanlıya...**

**Hörmətli Vaqif müəllim... Biləsiz ki, bu yaxınlarda mənim ailəm çəkilməz bir dərdə mübtəla oldu. Uşaqlarımın atası, 55 il mənimlə ömür yaşamış, müdrik insan, nəcib bir qəlbin sahibi olan həyat yoldaşım Elman Araslı dünyadan köçdü. İzdihamlı dəfn mərasimi, çoxadamlı cümə axşamları, qırx mərasimi mənimçün elə bil dumana bürünmüş günlər, saatlar kimi keçdi. Məhz indi, özümlə tək qalanda başa düşürəm ki, demə mənim həyatım iki yerə bölünübdür. Ona qədər və Ondan sonra. Elə bil mənim bir parçam da gedər-gələməzə getdi... Bunu izah eləmək, həmişə yeri görünəcək o boşluğu doldurmaq və bununla barışmağın özü belə son dərəcə çətindir. Belə bir söz var ki, zaman hər şeyi sağaldır. Mənimçün bu yara heç vaxt qaysaq bağlayan deyil, olsa-olsa, bəlkə mənə ağrı ilə bir yerdə yaşamağı öyrədəcək...**

Hörmətlə, **Elvira Araslı**

*Bu dünyadan hamı gedəsidir. Bir ayaq tez, bir ayaq gec... Bizim təsəlli verməkdən özgə çarəmiz nədir ki? Allah rəhmət eləsin, qəbri nurnan dolsun...*